# AZƏRBAYCAN RESPUBLİKASININ
# ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 47

Bakı şəhəri "8" may 2018 il

**2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasının təmin edilməsi barədə**

2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara həsr olunmuş Azərbaycan Respublikasının Energetika Nazirliyi Kollegiyasının iclasının 2018-ci il 19 aprel tarixli 02 nömrəli Protokolunun icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər Planının icrasının aidiyyəti qurumlarla əlaqəli şəkildə icrasını təmin edilməsi məqsədilə həmin qurumların nümayəndələrindən ibarət işçi qrupunun yaradılması barədə 10 gün müddətində təkliflərin hazırlanması təmin edilsin (N.Abbasov).

3. Tədbirlər Planı ilə müəyyən olunmuş əsas icraçılar işlərin vəziyyəti barədə aylıq hesabatların verilməsini təmin etsinlər (S.Vəliyev, G.Cavadov, N.Abbasov).

4. Ümumi şöbə bu əmrin surətini nazirliyin aparatının struktur bölmələrinə çatdırılmasını təmin etsin (E.Rzayevə).

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**

14

Azərbaycan Respublikası Energetika Nazirliyinin
2018-ci il 8 may tarixli 47 nömrəli əmri ilə
**təsdiq edilmişdir**

# 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planı

| № | Tədbirin adı | Əsas icraçı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Ölkədə elektrik enerjisi ilə təchizatın qiymətləndirilməsi, orta və uzunmüddətli dövrdə sosial-iqtisadi inkişaf tendensiyaları, sənayeləşmə prosesləri və əhalinin artım templərinin nəzərə alınması ilə orta və uzunmüddətli dövrdə (5-10 il) elektrik enerjisinə daxili tələbin qiymətləndirilməsi | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>S.Axundov | May-İyul |
| 1.1 | Elektrik enerjisi ilə təchizatın qiymətləndirilməsi məqsədilə həyata keçirilmiş və qoyulmuş, habelə planlaşdırılan tədbirlər və investisiyalar barədə məlumatların alınması və təhlili | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>S.Axundov | May-İyun |
| 1.2 | Sosial-iqtisadi inkişaf tendensiyaları və sənayeləşmə prosesləri və əhalinin artım templəri üzrə məlumatların əldə edilməsi və təhlillərin aparılması | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>S.Axundov | May-İyun |
| 1.3 | Elektrik enerjisi istehlakçı qrupları üzrə sərfiyyat proqnozları, ötürmə və paylanmada itkilərin səviyyəsi barədə məlumatların alınması və təhlili | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>S.Axundov | May-İyun |
| 1.4 | Orta və uzunmüddətli dövr üzrə elektrik enerjisinə olan ölkədaxili tələbin qiymətləndirilməsi | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>S.Axundov | İyun-İyul |
| 2. | Region (Rusiya, İran, Gürcüstan, Türkiyə) və digər ölkələrdə (Avropa, Mərkəzi Asiya ölkələri və digər) elektroenergetika bazarlarının mövcud vəziyyəti, inkişaf tendensiyaları nəzərə alınmaqla orta və uzunmüddətli dövrdə (5-10 il) elektrik enerjisinə olan tələbin və Azərbaycandan elektrik enerjisinin ixrac potensialının qiymətləndirilməsi | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>E.Cəfərova<br>S.Axundov | May-İyul |
| 2.1. | Elektrik enerjisinin ixracı məqsədilə cəlbedici bazarların seçilməsi, ikitərəfli və digər formatlarda beynəlxalq işçi qrupları və ekspert dialoqları çərçivəsində, habelə digər mənbələr vasitəsilə region (Rusiya, İran, Gürcüstan, Türkiyə) və konyunkturadan asılı olaraq potensial ölkələrdə (Avropa, Mərkəzi Asiya ölkələri və s.) elektroenergetika bazarlarının mövcud vəziyyəti, inkişaf tendensiyaları nəzərə alınmaqla orta və uzunmüddətli dövrdə (5-10 il) elektrik enerjisinə olan tələbin qiymətləndirilməsi | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>E.Cəfərova<br>S.Axundov | May-İyun |
| 2.2. | Azərbaycandan elektrik enerjisinin ixrac potensialının qiymətləndirilməsi | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>S.Axundov | İyun-İyul |
| 3. | Ölkədə generasiya güclərinin və elektrik şəbəkəsinin mövcud vəziyyətinin təhlili əsasında orta və uzunmüddətli dövrdə (5- | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə | May-Sentyabr |

| | | | | |
|---|---|---|---|---|
| | 10 il) yeni generasiya güclərinə tələbin qiymətləndirilməsi | | S.Axundov | |
| 3.1. | Generasiya gücləri və elektrik şəbəkəsinin mövcud vəziyyətinin və qeydə alınmış pik yüklər üzrə təhlillərin aparılması | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>S.Axundov | May-İyul |
| 3.2. | Generasiya güclərinə və mənbələrinə tələbin qiymətləndirilməsi | A.Mürsəliyev | X.Məsimova<br>P.Bayramova<br>C.Talıbzadə<br>S.Axundov | İyul-Sentyabr |
| 4. | Şimal-2" elektrik stansiyasının tikintisinin gedişatının nəzarətdə saxlanılması və mütəmadi olaraq arayışların hazırlanması və təqdim olunması | A.Mürsəliyev | - | Mütəmadi |
| 5. | Cari ilin sonuna qədər ölkədə qazlaşdırma səviyyəsinin 95 faizə çatdırılması istiqamətində həyata keçiriləcək tədbirlərin gedişatının nəzarətdə saxlanılması və mütəmadi olaraq arayışların hazırlanması və təqdim olunması | E. Həşimov | S.Axundov | Mütəmadi |
| 6. | Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ mənbələrlə təminatına dair əsaslandırılmış təkliflərin hazırlanması | E.Həşimov | X.Məsimova<br>C.Talıbzadə<br>P.Bayramova<br>S.Axundov<br>ABOEMDA | May-Noyabr |
| 6.1. | Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin təsnifləşdirilməsi və mövcud vəziyyətin öyrənilməsi | E.Həşimov | X.Məsimova<br>C.Talıbzadə<br>P.Bayramova<br>S.Axundov<br>ABOEMDA | May-Sentyabr |
| 6.2. | Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ mənbələrlə təminatı variantlarının müəyyən olunması və səmərəliliyinin qiymətləndirilməsi və əsaslandırılmış təkliflərin hazırlanması | E.Həşimov | X.Məsimova<br>C.Talıbzadə<br>P.Bayramova<br>S.Axundov<br>ABOEMDA | Sentyabr-Noyabr |
| 7. | Alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi sahəsində Azərbaycan üzrə indiyədək aparılmış təhlillərin (strategiyalar, texniki-iqtisadi əsaslandırmalar, konseptual sənədlər və digər) əsas məsələləri və nəticələri barədə arayışın hazırlanması, növbəti tədqiqatlar üçün zəruri olan istiqamətlər barədə əsaslandırılmış təkliflərin hazırlanması | C.Talıbzadə | S.Axundov<br>ABOEMDA | May-İyun |